

## İLTİMAS SƏMİMİ

### *KÜLƏKLƏR YÜYÜRDÜ ÜSTÜMƏ...*

Bəyaz əllərindən düşdü bu yollar,
Çırpıldı daşlara, sındı qəlbimtək.
Bənizi saralmış xatirələr də,
Daha ümid -ümid sevinmiyəcək.

Bu sükut daşların sükutu deyil,
Ümidim üzünü göylərə tutmuş.
Əlləri qoynunda arzularımın,
Hər gün adladığım yollar unutmuş.

Kiri, gözlərimdə bitən intizar,
Daha qayıdası deyil, o çağlar.
Ömrümə təkliyin kölgəsi düşüb,
Yolur saçlarını bəyaz varaqlar.

Mən də misra -misra qoxudum səni,
O çağlar yadıma düşdüyü zaman.
Varaqlar üstündə hönkürdü qələm,
Sənsizlik qəlbimi göynətdi yaman!

***28.06.2018***

***

Bir az da yaxına gəl,
Bəlkə, sənə tanış gələ.
Qüruba enən Günəşə sarı,
Uzalı qalan
O totuq əllər.
Ürəyində xoş sözlər,
Ruhda bahar sevinci...
Ümidi heç nədən üzülməmiş,
Hələ gələcəyə ümidlə baxan,
Xəyalında dünyalar quran,
Kənd uşağı.
Hələ bütün fəsillər
Sənə bahar kimi,
Yayın bürküsündən,
Payızın küləyindən,
Qışın çovğunundan xəbərsiz.
Yalanlara inanan,
Hələ yalanın yalan olduğunu bilməyən,
Kənd uşağı.
Zaman sənə hər şeyi anladar,
Sən isə, zamanın ətəyindən tutub
Bir ömür sürünə-sürünə yol gedəcəksən...

***31.05.2018***

***

Şeirim hələ yarımçıq
Varaqlar üstə.
Qələmim var-gəl etməkdə,
Gah içimdə qış havası,
Yaz yağışı,
Gah payız küləyi əsməkdədir.
Şeirim hələ yarımçıq,
Misralarım ot-ot göyərir.
Yarpaq-yarpaq boy atır,
Mən isə gecənin bu vaxtı,
Dörd divar arasında tənha.
Yollar kölgəm qədər qısa,
Zaman hardan başlanır, bilmirəm...
İçimdə bir səs mənə
"Sus-sus", - deyir.
Susuram yarımçıq qalan
Şeirimə görə.

***13.06.2018***

***

Yubanmışdın elə bil,
Dərdləşməyə
Bir kimsə tapmırdın.
Səssiz-səmirsiz,
Əngin göylərə baxa-baxa,
Ötən günlərini xatırlayırdın.
Dostum, alın yazısından
Qurtulmaq olmur.
Ha yana üz çevirsən də,
Yaşadıqların taleyindir.

***15.06.2018***

***

İçində qırılan
Ümidin kimi,
Bu yol hardasa
Qırıla bilər.
Payız qoxuyan sözlər,
Qoru sönmüş
Ocağı xatırladır.
Hər anı sükutla keçən ömür,
Təbəssümü olmayan üz kimi.
Yoruldumu,
Dərdinin kölgəsində
Yıxıl xatirələrin ayaqlarına.
Yollar təsəllidir,
Yenicə ovlanmış balıq kimi
Taleyin ovcunda, neçə söz çırpınır.

***15.06.2018***

***

Hardasa,
Yorğunluğun bilinir,
Bu qoca dünyanın
Yuxusu qarışmış yaddaşında
Adın ayaq tutub,
yeriməkdədir.
Daha sonraya bir ümid qalmayıb,
Dənizin yalquzaq dalğaları
Sahilə cumduqca,
Xatirimə sən düşürsən.
Daha günlər
Əvvəlki tək maraqlı deyil,
Dünyanın ovcunda
Söz-söz yollar uzanır.
Yayın bürküsündən,
Payızın küləyindən,
Yağışından xəbərsiz
Xəyallar qurursan.
Bu qoca dünyanın
Yuxusu qarışmış yaddaşında,
Adın ayaq tutub
yeriməkdədir...

***16.06.2018***

***

Yorulmuşdu,
Elə bil yollarda
Yıxılıb qalan xatirələrim.
Bu yerlərdə təsəlli sözündən,
Pöhrələnən fikirlər.
Akvariumda üzən balıq kimi,
Zaman isə, səni xatırladır.
Çətindir bir ömür beləcə susmaq,
Çətindir xəyallara dalıb,
İtirənləri xatırlamaq.
Tanrı bəlkə də, susanları sevir, qardaşım.
Yuxusu qarışmış
Bir az da, bəxtindən bezikənlərdənəm.

***19.06.2018***

***

Bunlar hamısı,
Unutduqlarımdır.
Daha xatırlaya bilmərəm
Adladığım yolları.
Udduğum hava,
İçdiyim su,
Qızındığım ocaq,
Gəzdiyim torpaq.
Saçlarımın ucundan
Barmaqlarımacan
Uzanan yol imiş.
Canımdakı ağrılarım
Ağac-ağac boy atır.
Ümidsizliyim
Susuzluqdan cadar-cadar olmuş
Torpaq kimi.
Bəxtimin göylərində
Nə bir əlçim bulud var,
Nə də dincəlməyə bir kölgə.

***19.06.2018***

***

Küləklər yüyürdü üstümə,
Sıxdım göz yaşımı ağ varaqlara.

Yorğunluğum misra-misra,
Ayaq tutub yeridi.
Çətin imiş dərdini duymayanlarla
Eyni yerdə,
Eyni məkanda yaşamaq.
Bu da, ümidsizliyimin
Son anları.
Səni xatırlamaqdan başqa,
Heç nə bacarmıram.

***23.06.2018***

***

Adımı ağaclara,
Daşlara deməmiş,
Çıxıb getmərəm.
Bəlkə, qayalar məni duymur.
Bəlkə, ayaq səsimə
Həsrət qalmış yollar kimi,
Laldır əngin üfüqlər.
Dostum, bəri bax,
Suvağı tökülmüş o, evi görürsənmi?!
Əgər danışdıra bilsən
Danışacaq sənə uşaqlığımı.

***28.06.2018***

***

Sözlərimdən, incidinmi?
Hər gün bir az incimək,
Bir az küsmək,
Bir az keçmişi xatırladan
Sözlər eşimək.
Bahar çağı qəfil,
Yağışa düşmək kimidir.
Daha heç nə eşitməsən də,
Adladığın yollar kəndir kimi
Dolaşar ayaqlarına.
Ümidsizlikdən batan səslər
Mənə tanış olduğu qədər,
Sənə də tanışdır.
Sus, dan hələ sökülməyib
Səhərin açılmağına
Hələ çox var.

***30.06.2018***

***

Bilirəm,
Bütün yollar sənə sarıdır.
Sükutun caynağından
Nə vaxtsa,
Yolları qamarlayıb
Yüyürüb gələcəyəm.
Daşlarla baş-başa
Dayanıb susmaq,
Ürəyə ən ağır yükmiş...
Gözlərimə çökən
Gecənin qaranlığı,
Qaranlıqda sən
və nakam sevgim.

***06.07.2018***

***

Payızın yağışı ayaq izlərini
Yuyub aparacaq.
Adladığın yollar, yeridiyin küçələr,
Döndüyün döngələr çıxar yadından.
Dostum, bu şəhər
İnsana öz adını da unutdurur.
Səni, elə bil, unutmuşdum,
Çətindir qayğısı çox olan məkanda
Nəsə yadda saxlamaq.
Sənə su kimi,
Hava kimi lazım olanı
İllərlə axtarıb tapa bilməzsən.
Cumar üstünə ilan tək,
Yeridiyin küçələr,
Adladığın yollar,
Döndüyün döngələr.
Bu şəhər məhbəsdir,
Sənsə, qayğılara məhkum.
Səni elə bil, unutmuşdum,
Çətindir qayğısı çox olan məkanda
Nəsə yadda saxlamaq.

***13 iyul 2018 -ci il***

***

Vaxta bir az söz qatdım,
Üşütdü əllərimdən.
Dünənin həsrəti.
İlan-ilan qıvrılan yolların
Dodaqlarında
Xatirlər söz-söz öldükcə,
Xəyalımdan yenə
Birgə olduğumuz günlər keçdi.
Daha dayanmağa bir yer axtarma,
Gəzdiyin yerləri,
Adladığın yolları,
Göz yaşlarımla suvarmışam.

***14 iyul 2018 -ci il***